

Əbdülhəmid əbu Süleyman

# AĞIL VƏ MÖCÜZƏ BAXIMINDAN HƏZRƏTİ MƏHƏMMƏDİN PEYĞƏMBƏRLİYİNİN HƏQİQİLİYİNƏ İNAM

Əbdülhəmid əbu Süleyman

# AĞIL VƏ MÖCÜZƏ BAXIMINDAN HƏZRƏTİ MƏHƏMMƏDİN PEYĞƏMBƏRLİYİNİN HƏQİQİLİYİNƏ İNAM

Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK

Bakı - 2017

© Beynəlxalq İslam Fikri İnstitutu, 2017
© "İdrak" İctimai Birliyi, 2017

The International Institute of Islamic Thought (IIIT)
P.O. Box 669, Herndon, VA 20172, USA
www.iiit.org

IIIT London Office
P.O. Box 126, Richmond, Surrey, TW9 2UD, UK
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN: 978-9952-925-25-8

Tərcüməçi və redaktor, ön söz və şərhlərin müəllifi:
Fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-1048/Q)

# Giriş

Bu məqalə Quran mədəni dünyagörüşünün başlıca probleminə toxunduğu üçün əhəmiyyətli hesab olunur. İslam mədəniyyətinin quruluşunda bazis-stereotip hesab edilən bu dünyagörüşü forması mənəvi olub, varlıq və insan həyatının əsas prinsipləri ilə əlaqədardır. Dünya həyatı və axirətlə əlaqəli istənilən dünyagörüşü o halda "rəsmi" (məqbul) hesab olunur ki, varlıq aləminin xaliqi tərəfindən təsis edilsin. Bununla yanaşı, axı varlıqla əlaqəli əsas anlayışlar və axirət məsələləri ağılla dərk olunur.

Məqalədə qarşıya qoyulan məqsəd iman institutunun əqli və nəzəri mahiyyətini, bundan irəli gələn başlıca varlıq prinsiplərini izah etməkdir. Bu, həm də islam dünyagörüşünün məzmununu əmələ gətirir. Elə bir məzmun ki, hələ uşaqlığından müəllifə istiqamət vermiş, onun islama baxış tərzini formalaşdırmış, mənəvi və maddi həyatının mənasını əmələ gətirmişdir.

Müəllif ümid edir ki, məqalə oxucularda aydın və möhkəm təsəvvürlərin yaranmasına kömək olacaq, vəhdaniyyətə (tövhid), varislik və yaxşılaşdırma işinə (***islah***) əsaslanan dünyagörüşü formasının məzmununu daha da açacaqdır.

Məni bu məqaləni yazmağa, orta məktəbdə oxuyarkən qazandığım uşaqlıq və gənclik xatirələrim əsasında problemə yenidən toxunmağa vadar edən budur ki, elmi islam metodologiyasını araşdırarkən bəzi məsələlər diqqətimi cəlb etmişdi. Belə ki elmi və müfəssəl ideyalardan çıxış etsə də, İbn Həzm əl-Əndəlusi iman problemi və vəhyin özü-özlüyündə dəlil olmağı məsələsində kəskin elmi-rasional üslub nümayiş etdirmişdir. İbn Həzm vəhyin özü-özlüyündə dəlil olduğunu isbatlamaq üçün xariqüladə hallar və möcüzələri sübut göstərmişdir.

Gəncliyimdə məlum problemlə (iman və vəhyin həqiqiliyi) qarşı-qarşıya qaldığımda bu yaş mərhələsində başqaları necə idisə, mən də elə idim. İman və islam dünyagörüşü məsələsində rasional-elmi üsluba əməl edirdim; problemi həll edərkən xariqüladə hadisələri əhəmiyyətli arqument olaraq təqdim etmirdim. Bu da öz növbəsində bir neçə il bundan əvvəl məni "İbn Həzmin zahirilik üslubu və Həzrəti Məhəmmədin peyğəmbərliyinin ecazkarlığı haqqında düşüncələr" adlı məqalə[1] yazmağa sövq etdi. Çünki İmam İbn Həzmin üslubunu dərk edir, elmi-metodoloji yanaşma tərzini təkmilləşdirməyi düşünürdüm.

---

[1] Bax: İbn Həzmin zahirilik üslubu və Həzrəti Məhəmmədin peyğəmbərliyinin ecazkarlığı haqqında düşüncələr // "Təcdid" jurnalı, Malayziya Beynəlxalq İslam Universiteti, № 3 və 4, səh. 167-172.

## *Vəhyin həqiqiliyini isbatlamada rasional dəlillər daha məqsədəuyğundur*

Məlumdur ki, İbn Həzm əl-Əndəlusi İslam tarixi və fikrinin dahi şəxsiyyətlərindəndir. Onun yaradıcılığı elmiliyi, sistemliliyi və metodoloji xüsusiyyəti ilə seçilir. O, son dərəcə cəsarətlə, həm də konkret şəkildə ağıl, reallıq, təcrübə və hiss anlayışlarından çıxış edərək, dini-fikri don geyindirilmiş istənilən növ xurafatı, cəfəngiyatı, zənni rədd etmişdir. O da məlumdur ki, İbn Həzmin elmi-metodoloji düşüncə tərzi Müsəlman fikri tarixində sözügedən alimin elmi üslubunun qəbul olunmamağında rol oynamış mühüm amillərdən biridir. Əvvəla, ona görə ki, müsəlmanların düşüncə tərzində nöqsanlar özünü göstərmiş, həm də ona görə ki, müsəlman alimləri və mütəfəkkirləri real həyatdan uzun müddət uzaq düşmüşlər.

Nəzərə alınmalıdır ki, İbn Həzmin şəriət hökmlərində "vəhy mətnlərinin ancaq zahiri məzmunu"nu əsas götürməsi onun ağıl, hisslər və təcrübəni ehtiva edən elmi metodologiyasının təbii nəticəsidir. Bu səbəbdən, onun əsas istinad etdiyi metodologiyaya görə, qeybdən gələn, Allahın vəhy olaraq göndərdiyi biliklərə insan oğlu nə bir şey artıra, nə də onlardan nə isə çıxdaş edə bilər. İbn Həzm bildirirdi ki, ağıl vəhyi – ilahi biliyi necə varsa elə dərk etməlidir. Çünki mötəbər əqli dəlil və ya istinad olmadıqda aşkar (əqli) mahiyyətlər gizli

(qeybi) mahiyyətlərlə qarışıq salınır, bununla da, ağıl ya ilahlaşdırılır, ya da bütövlükdə inkar edilir.

İbn Həzm vəhyi və vəhy mətnlərini artıqlıq və əskikliyə yol vermədən – olduğu kimi qavramaq üçün intellektual imkanlarını səfərbər etmiş, özünəməxsus metodologiya işləyib hazırlamışdır. Bunun sayəsində o, şəriəti və hökmlərini o dərəcədə dərindən başa düşmüşdür ki, tələbələrindən əvvəl metodunun əleyhdarları onun fiqhi və ideyalarına ehtiramla yanaşmışlar. İbn Həzm bu günədək Müsəlman dünyasında nüfuzlu hüquqşünaslardan hesab olunur.

## *Təqlid və geriləmə əsrləri ümmətin dahilərini həyatın küncünə sıxışdırır*

İslam tarixinin geriləmə mərhələsində elmi-metodoloji məfkurəyə sahib alimlərin etinasızlığa tuş gəlməsi Müsəlman dünyasının məruz qaldığı düşüncə böhranını göstərir. İslam biliklərinin dağınıqlığı, müsəlman alim və ziyalıların məscid və məktəblərdə ilişib qalmağı düşüncədə ətalət və donuqluğa səbəb olmuşdu. Bu etinasızlığın qurbanı təkcə İbn Həzm deyildir. Eyni taleyi elmi-metodoloji və yaradıcı düşüncəyə sahib digər alimlər də yaşamışdılar. Məsələn, alim və ziyalıların böyük hissəsi İmam İbn Teymiyyəyə ədavət bəsləmiş, ona dindən uzaqlaşma damğası vurmuşlar. Həmçinin müsəlman alimləri və ziyalılarının əksəriyyəti İbn Xəldun kimi dahinin ideyalarına laqeyd yanaşmışdılar. İbn Xəldunun yaradıcılığı Avropalı sosioloqlar

tərəfindən üzə çıxarılanadək unudulmuşdu. İdeyaları bivecliklə üz-üzə qalan, metodları inkar olunan belə alimlər çoxdur.

İctihad qapısının bağlanmasından sonrakı dövrdə yaşamış nadir şəxsiyyətlərin həyatına nəzər saldıqda görürük ki, bu cür gözlənilməz nümunələri hakim mədrəsə düşüncə tərzindən öz təbiəti və istiqaməti ilə fərqlənən elmi həyat meydana çıxarmışdır. Mədrəsələrdə biliklər qeyri-sistematik idi, orada işləyən alimlər özlərini real həyatdan təcrid etmişdilər. İbn Teymiyyə, İbn Həzm, İbn Rüşd və İbn Xəldun kimi alimlər məscid və mədrəsə alimləri deyil, əksinə, təcrübəli, bəsirətli, sosial-siyasi cəhətdən praktik mütəfəkkirlər idilər. Təcrübə, bacarıq və praktika onlarda bitkin rasional-elmi biliklər meydana gətirmişdi. Nəticə etibarı ilə nəzəri biliklərini praktikada təsdiqləmiş, real həyata, dəyişikliklərinə əməli münasibət bəsləmişdilər. Bu səbəbdən onların ideya və ictihadlarının böyük hissəsi yaşadıqları dövr üçün orijinal və mütərəqqi sayılırdı.

Real aləm və qeyb dünyasına münasibətdə İbn Həzmin elmi üslubu ardıcıllığı və dəyişməzliyi ilə seçilsə də, o, vəhyin bilik mənbəyi olaraq seçilməsində rasional dəlillərin mahiyyətini araşdırarkən, ağıl və şəriəti təhlil edərkən dolaşıqlığa düşmüşdür.

Madam ki İbn Həzmin metodologiyasında ağıl və reallıq (aşkar mahiyyətlər) əsas götürülür, puç fərziyyələr, batini və qnostik xəyalat rədd edilir, onda o, vəhyin təsdiqlənib ağıla etimadın göstərilməsində istinad olaraq rasional, elmi və metodoloji arqumentlər axtarışına çıxmalı idi.

Vəhyin (qeybin) özü-özünü isbat xüsusiyyəti o halda məqbul qəbul edilər ki, Həzrəti Məhəmmədin peyğəmbərliyinin həqiqiliyini isbatlansın. Bu məqamda görürük ki, İbn Həzm, bir tərəfdən, ağılı, hisslər və təcrübəni həqiqi və qanuni bilik mənbəyi hesab edən elmi-rasional metodu, digər tərəfdən isə, iman və duyğuları, islam missiyasının böyüklüyü, insan həyatı üçün zəruriliyi, qeyb və reallığın bir bütöv kimi götürülməsinin lazımlı olduğunu dərk etməsi arasında qalmışdı.

Buna görə də İbn Həzm öz ideyaları və metodologiyası ilə səsləşən bu əqli dəlili tapmalı idi. Bu dəlil qnostik xəyalat və fərziyyələrə qapılmadan qeyblə reallıq arasında rasional əlaqələndirmə halqasını əmələ gətirəcəkdi.

İbn Həzm kimi qeyb aləmi ilə qnostik rabitə iddialarını qəbul etməyən bir alim sözügedən dəlili tapmaq üçün Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyatını araşdırmalı idi. Ağılı qane edəcək elə canlı dəlil tapılmalı idi ki, Həzrəti Məhəmmədin həqiqi peyğəmbər olduğu isbatlansın. Bu səbəbdən Peyğəmbərin həyatında İbn Həzmin möcüzə axtarışına çıxmağı peyğəmbərliyi təsdiqləmək və peyğəmbərliyə tabe olmaq məsələlərində rasional-elmi və metodoloji əsas rolunu oynayacaqdı. Bununla da, peyğəmbərliyin təsdiqlənməsi, qeyb aləmi ilə real dünya arasında ağlabatan əlaqə üzə çıxacaqdı. Bu cür metodoloji və rasional çıxış nöqtəsi qeyb məsələlərini təsdiqləmək və ilahi təlimlərə tabe olmaq məsələlərində İbn Həzm metodologiyasının yeganə sağlam çıxış nöqtəsidir.

Amma Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyatından İbn Həzmin iqtibas gətirəcəyi qənaətbəxş, şəkk-şübhəyə yer buraxmayacaq möcüzə nədən ibarətdir?

Metodunun sağlamlığına, metodoloji nöqteyi-nəzərinin səlisliyinə baxmayaraq, təəssüf ki, İbn Həzm istədiyinə nail olmamış, irəli sürdüyü vacib ilkin müddəalardan lazımi nəticələr çıxara bilməmişdi. İbn Həzmin axtarışları səmərəli olmuşdu: Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aid edilən maddi xariqüladə hallar möcüzə kimi öz təsdiqini tapmışdı. Amma mümkündür ki, bu xariqüladə hallardan bəhs edən hədis və rəvayətlər – onlardan bəzisini möminlər qəbul etsə də – istinad və mətnin səhihliyi baxımından elmi mübahisələrə səbəb olsun. İstinad və mətnin səhih olub-olmamağı, ravilərin şişirtmələri, hisslərin aldadıcılığı və digər amillər səbəbi ilə mövzu ətrafında mübahisələrin yaranmağı mümkündür. Nəticədə mübahisə edən tərəflərin çoxunda belə bir nöqteyi-nəzər formalaşır ki, sözügedən xariqüladə hallara inanmaq ancaq onları öz gözləri ilə görənlərə vacibdir. Başqaları isə bu xariqüladə hallara iman gətirdikləri təqdirdə onları təsdiqləmiş sayılırlar. Və ya bu, Peyğəmbərə ehtiram göstərib, sevgi bəsləməkdir, valeh olmaqdır. Ya da bunu həmin xariqüladə halları qorxaraq və ya müəyyən mənafe naminə qəbul edən alim və bilikli şəxslərə ehtiram göstərmək kimi qiymətləndirmək mümkündür. Bütün bunlar isə İbn Həzmin elmi-rasional üslubu ilə üst-üstə düşmür.

Bu sətirlərin müəllifi də sistemli elmi-rasional üslubu mənimsəmək baxımından İbn Həzmin yolu ilə gedir.

Hələ Məkkədə, Kə`bənin yaxınlığında orta məktəbdə oxuyarkən məni yuxarıdakı sual maraqlandırmışdır. Ağlım kəsdikcə var olmağımızın mənası, qeyb aləmi ilə real dünyanın əlaqəsi, bu ciddi və taleyüklü məsələdə "hansı yolla getmək, hansı inancı mənimsəmək" problemi haqqında düşünürdüm.

Zəngin ailə kitabxanamız və mehriban elmi ailə mühiti həmin vaxtdan etibarən məndə səciyyəvi təsəvvürlər formalaşdırmışdı. Problemlə əlaqədar olaraq, elmi düşüncələrim Peyğəmbərin həyatına istiqamət aldı. Mən Həzrəti Məhəmmədin həyatında onun peyğəmbərliyinin həqiqiliyini, missiyasının müqəddəsliyini təsdiqləyən "itmiş halqa"nı axtarırdım. Çünki bu "halqa" (dəlil) tapılmadan peyğəmbərliyin zəruriliyini məntiqi cəhətdən isbatlamaq mümkün deyildir.

## *Ağıl möcüzədən daha məqsədəuyğundur*

İbn Həzmdən fərqli olaraq, mən ilk mərhələ olaraq dəlil axtarışına, Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aid edilən möcüzələrdə "itirilmiş halqa" axtarışına çıxmamış, rəvayətlərdəki istinad və məzmun problemlərini həll etməyə girişməmişəm. Fikirlərimi Peyğəmbərin kimliyinə yönəltmişdim. Fərqinə varıram ki, ağlımla varlıq və fövqəlvarlığın mahiyyətini qavraya bilmərəm. Onun da fərqindəyəm ki, qeyb aləmi ilə – Allahla danışmağım, Peyğəmbər və peyğəmbərlik haqqında sual verməyim mümkün deyildir. Bu səbəbdən dəlil axtarışına çıxmalı, Peyğəmbərin həyatındakı "itmiş

halqa"nı tapmalı idim. Özü də bu dəlil və ya "itmiş halqa"nı ağıl və fitrətə əsaslanaraq, maddi möcüzələrə müraciət etmək, onları heçə saymamaq, varlıq qanunauyğunluqlarını inkar etməmək şərti ilə tapmalı idim. Həmin vaxtlar mən Peyğəmbər və peyğəmbərliyin həqiqiliyinin isbatlanmasında möcüzələrin arqument seçilməsinin zəruriliyinə ehtiyac hiss etməmiş, bu iki anlayışı təsdiqləyən elmi-rasional dəlil tapa bilmişdim. Bu da öz növbəsində məni yaşadığımız elm əsrində mühüm bir boşluğu doldurmaq, elmi-rasional və metodoloji bir problemə aydınlıq gətirmək, haqlı güclünün deyil, güclü haqlının yanında dayansın deyə materialist dünyagörüşü ilə mübarizədə mənəvi dünyagörüşünü yenidən meydanlara qaytarmaq üçün bu məqaləni yazmağa sövq etmişdi.

Hələ uşaqlığımdan təsəvvürümdə tutduğum elmi metod sonuncu peyğəmbərliyin həqiqiliyinin rasional-elmi yolla isbatlanmasını zəruri edirdi. Bu metod elə etməli idi ki, peyğəmbərliyi təsdiqləyərkən dövrümüzdə yaşayan insanların yəqinliyi Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* müasirlərinin yəqinliyindən fərqlənməsin. Bu səbəbdən Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* peyğəmbərliyini isbatlayarkən ağıl əsas götürülməli idi. O ağıl ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* gətirdiyi təlimlərdə ona ehtiram göstərilir, onun zəruriliyindən söz açılır. Buna görə də peyğəmbərliyin həqiqiliyi isbatlanarkən ağıl və hisslərin nüfuz edə bilmədiyi müxtəlif möcüzələr arqument olaraq göstərilməməlidir.

Bu metoda görə peyğəmbərliyin həqiqiliyi əgər Həzrəti Məhəmmədin şəxsiyyəti (kimliyi) əsasında isbatlanmalıdırsa, onda başlanğıc olaraq, onun həyatına həm "hissə-hissə", həm də bir bütöv kimi nəzər salmaq, ömür salnaməsini başqa insanlarınkı ilə müqayisə etmək lazımdır. Bu imkan verəcəkdir ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* vəhyi insanlara necə çatdırmağı, onları ona necə inandırmağı məsələsi məntiqi cəhətdən izah olunsun.

Tarixçilər qeyd edirlər ki, islamın meydana çıxması digər dinlərin meydana çıxması kimi olmamışdır: Quranın mətni və Peyğəmbərin həyatı bizə olduğu kimi gəlib çatmışdır. Həm tarix, həm də Quran mətni bizə izah etmişdir ki, Həzrəti Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* insan olmuş, başqa insanlar kimi ömür sürmüş, həyatının ayrı-ayrı detallarında bəşərilik ifadə olunmuşdur. Elə isə peyğəmbərliyinin həqiqiliyi isbatlanarkən seçilən arqumentdə bəşərilik nəzərə alınmalıdır. Yəni, möcüzəvilik bu "bəşər övladı"nın həyatının harasındadır? Və ya onun qeybdən göndərilən bilikləri rasional qaydada insanlara çatdıran bir peyğəmbər olduğunu isbatlayan arqument haradadır?

## *Həqiqi peyğəmbərliyin şərtləri*

İki şərtə əməl edildiyi üçün Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* missiyasını (Quranı) ilahi missiya hesab etmək mümkündür. Bu şərtlərdən birincisi mötəbərlikdir. Qurani-Kərim başdan-ayağadək

mötəbər kitabdır. Çünki başqa dinlər və kitablarının mötəbərliyini təsdiqləyən sənədlər əlimizdə yoxdur. Halbuki Quran hələ Peyğəmbərin dövründə yazıya köçürülmüş, ixtisaslı qarelər tərəfindən bütöv şəkildə kəsilməz istinadlarla dildən-dilə ötürülmüş, indi də ötürülməkdədir. Həmçinin hər bir müsəlmandan tələb olunur ki, gündəlik beş vaxt namazlarında Qurandan müəyyən hissələri oxusun. Müsəlmanların əksəriyyəti həyatı boyunca könüllü şəkildə Quran oxuyur, əzbərləyir, öyrənir, ondan ibadətdə istifadə edir, təbərrük umur. Bu da Quranı o dərəcədə mötəbər edir ki, heç bir tarixi mənbənin (sənədin) mötəbərliyi onunla müqayisə oluna bilməz. Elmdə, fəlsəfədə, bilik və mədəniyyətdə heç bir nailiyyəti olmayan savadsız bir xalq[2] tərəfindən mötəbərliyin bu səviyyədə təmin edilməsi, doğrudan da, heyrət doğurur.

İkinci şərtə gəlincə, bu, yaxşılıq (xeyir) məziyyətini ifadə edir. Quran dünyada yaxşılıq etməyə, əməlisalehliyə çağırır. Belə olmazsa, islamı müqəddəs missiya hesab etmək yersiz görünərdi. Bəlkə də, aşağıdakı ayə Quran missiyasının xüsusiyyətini, onun müsəlmanların həyatında oynadığı rolu aşkar şəkildə izah edir:

"Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!" (ən-Nəhl, 90).

---

[2] Ərəblər nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

Mötəbərlik və yaxşılığı məqsəd bilmək bir missiyanın ilahiliyini təsdiqləyən şərtlər kimi göstərilsə də, xeyrə təşviq edən mötəbər bir kitabın meydana gəlməsi məsələsi ətrafında yarana biləcək mübahisələrə son qoymaq gücünə sahib deyildir. Çünki əməllərini böyük göstərmək, onlara müqəddəslik donu geydirmək istəyən birinin peyğəmbərlik iddia etməsi mümkündür. Buna görə də üçüncü şərtə ehtiyac yaranır. Üçüncü şərt kimi elə rasional arqument seçilməlidir ki, Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Allahdan gələn təlimləri insanlara çatdıran peyğəmbər olduğunu isbatlasın. Bu səbəbdən əsas diqqəti Peyğəmbərin şəxsiyyətinə yönəltmək, həyatı və həyatının ayrı-ayrı detalları üzərində düşünmək lazımdır. Ancaq bu təqdirdə onun missiyasının həqiqiliyini təsdiqləyən həmin rasional arqumenti tapmaq mümkün olacaqdır. Həm də ki biz Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həqiqi səma elçisi olub-olmadığını müəyyənləşdirmək üçün Allahla birbaşa əlaqə yarada bilmirik. Bununla yanaşı, peyğəmbərlik elmi-rasional institutdur: "Oxu!" əmri ilə başlanmış, kitab gətirmiş, öyrənməyə, düşünməyə, dəlil və sübut istəməyə təşviq etmiş, qanunauyğunluqlar və səbəblərin dərkinə söykənmişdir. Bütün bunlar zəruri edir ki, Peyğəmbərin həyatına, şəxsi məziyyətlərinə, xarakterinin ayrı-ayrı detallarına nəzər salaq. Nəticədə biz onun peyğəmbərliyinin həqiqiliyini göstərən arqumenti tapacağıq.

## *“Başıaşağı piramida” möcüzəsi – rasional möcüzə*

Əgər Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyatında ayrı-ayrı cəhət və xüsusiyyətləri, davranış və məziyyətləri tədqiq etsək, yuxarıdakı arqumentin tapılmasına ehtiyac qalmayacaqdır. Lakin hər biri ayrı-ayrılıqda əzəmət ifadə etsə də, bu və ya digər şəxsin bu xüsusiyyətlərdən biri ilə seçilməsi mümkündür.

Amma Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyatının müxtəlif tərəflərinə bir bütöv kimi nəzər salsaq, məlum olacaqdır ki, möcüzə onun hər bir fərdi keyfiyyətinin möhtəşəm olmağında deyildir; möcüzə budur ki, bütün bu üstün keyfiyyətlər bitkin şəkildə bir insanda toplanıb. Deməli, Peyğəmbərin hər hansı üstün xüsusiyyətə sahib olmağı deyil, bütün ali keyfiyyətlərlə seçilməyi möcüzədir. Bu möcüzəvilik o dövrün mədəni səviyyəsi, Həzrəti Məhəmmədin şəxsi həyat şəraiti nəzərə alındıqda daha da qabarıq görünür.

Bu möcüzəviliyin ehtişamı ondadır ki, Peyğəmbəri *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bəşərilikdən uzaqlaşdırmamış, ağıl və məntiqin üstündən xətt çəkməmiş, dinin insanların təbii xüsusiyyət və xarakterlərinə uyğun şəkildə təbliğinə mane olmamışdır. Belə bir rasional-elmi və bəşəri möcüzəvilik qeyb aləmini real dünya ilə birləşdirən “halqa” rolunu oynamışdır. Həzrəti Məhəmmədin həqiqi peyğəmbər olduğunu təsdiqləyən qəti elmi-rasional arqument də məhz budur. Çünki istənilən möcüzə – barəsində bizə gəlib çatan

məlumatlar (hədis və rəvayətlər – ***mütərcim***) səhih olsa da, – etiqadın (imanın) zəruri şərti olmayıb, əlavə təsdiqləyici dəlil kimi çıxış edir.

Peyğəmbərin həyatındakı universal bəşəri, elmi-rasional möcüzəvilik dedikdə nəyi nəzərdə tutduğumuzu izah etmək üçün onun həyatına bir anlığına səyahətə çıxmalıyıq. Bu ona görədir ki, şəxsiyyətindəki başlıca məziyyətləri, həyatındakı əsas hadisələri müşahidə edək, kompleks təhlildən keçirək. Nəticədə görəcəyik ki, bu məziyyət və hadisələrdə elmi-rasional və bəşəri möcüzəvilik öz əksini tapıb. Həzrəti Məhəmmədin həyatı və peyğəmbərliyindəki bu möcüzəvilik qala-qala möcüzələrin arqument seçilməsinə ehtiyac yoxdur. O möcüzələrin ki, onları rəvayət etmək (dəlil göstərmək) nə peyğəmbərliyin başlıca prinsipləri, nə də bu peyğəmbərliklə başlanan yeni ümumbəşəri, elmi-mədəni mərhələnin məzmunu ilə üst-üstə düşmür.

Həzrəti Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* quru İbrahim vadisində, Ərəbistan səhrasında dünyaya gəldiyində atası həyatda yox idi. Uşaqlığında babası Əbdülmüttəlibin, daha sonra əmisi Əbu Talibin himayəsində yaşamışdı. Doğulmazdan əvvəl atasını, altı yaşına çatdıqda isə anasını itirmişdi. Atadan-anadan yetim qalsa da, Allah Təala onu uşaqlığında hər kəsin möhtac olduğu ana sevgisi, mehribanlığı və şəfqətindən məhrum buraxmamışdı. Bu ona Yaradanın lütfü idi. Allah istəmişdi ki, balaca Məhəmməd ana nəfəsini, qayğısı və əmin-amanlığını hiss etsin. Həzrəti Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyatın müxtəlif mərhələlərindən keçmişdi. Əgər bu müddət ərzində digər insanlar kimi

iddiaları, arzu və ehtirasları olsaydı, qırx il boyu bunu insanlardan gizlədə bilməzdi. Nə peyğəmbərlikdən əvvəlki illərdə, nə də 40 yaşında Səmadan vəhy aldığı vaxt üzünə bilik və hikmət qapıları açıldıqdan, qarşıya çıxan əngəlləri uğurla, liderlik bacarığı ilə aşdıqdan sonra Həzrəti Məhəmməddə şəxsi iddia və ehtiraslar baş qaldırmamışdı.

Uşaqlıqda, yeniyetməlikdə, cavanlıq və böyüklüyündə Həzrəti Məhəmmədin həyatı bitkin idi. O, qırx yaşına çatmadan bir ata və həyat yoldaşı, bir böyük olaraq kamilləşmişdi. Vəhy endiyi vaxt Həzrəti Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* artıq dürüst, etibarlı, əxlaqlı, mülayim və sadə insan idi. Bu səbəbdən Məkkənin ağıllı və iffətli qadını – Həzrəti Xədicə *(Allah ondan razı qalsın!)* var-dövlətini ona etibar etmiş, onunla izdivaca girmişdi. Çünki onda üstün ali keyfiyyətlərin, müsbət məziyyətlərin şahidi olmuşdu.

Əslində qırx yaşına qədəm başmaqla Həzrəti Məhəmmədin “cavanlıq” illəri başlanırdı. Halbuki qırx elə yaşdır ki, hissləri və ehtirasları, istəkləri alışıb-yanan insanlarda düşüncəsizlik (çılğınlıq) fırtınaları sakitləşir, yelbeyinlik yanğısı sönür. Çünki bu yaşda ipə-sapa yatmayan istəklər cilovlanır. Amma biz bu yaş mərhələsində Həzrəti Məhəmməddə deyilənlərin əksini görürük. Bu sadə, mülayim və əxlaqlı insan özünü xeyri təmsil edən ciddi ilahi missiyanın sahibi kimi təqdim etməyə başladı. O, insanlara qeyb aləmindən təlimlər gətirmiş, həm öz xalqını, həm də bütün bəşəriyyəti tövhidə, qardaşlığa, ədalətə, düşünməyə, gözəl əxlaqa, elm öyrənməyə, yaxşılaşdırmağa, tolerantlığa, etiqad

azadlığına çağırmış, əxlaqsızlığa, azğınlıq və zülmə, korrupsiyaya, təkəbbürlülüyə yox demişdi. Bütlərə tapınan xalqı bunu təəccüblə qarşılamış, məsələnin ciddiliyini, nə ilə nəticələnə biləcəyini nəzərə almamış, ilahi kəlamı rədd etmişdi. Maraqlıdır ki, Həzrəti Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* peyğəmbərliyi və missiyasının həqiqiliyini isbatlamaq üçün həmişə dürüst və etibarlı insan olduğunu xalqına – ərəblərə xatırladırdı. Məsələn, Səfa təpəsində ikən insanları çağırmış və səslənmişdi: "Əgər sizə desəm ki, bu dağın arxasında bir dəstə süvari toplaşıb sizə hücum etmək istəyir, mənə inanarsınızmı?" İnsanlar bir ağızdan demişdilər: "Bəli! Səni heç yalan danışan görməmişik!" O da demişdi: "Heç şübhəsiz ki, mən sizə Allahın göndərdiyi elçiyəm". Quranda bu hadisə haqqında deyilir:

"De: "Əgər Allah istəsəydi, mən onu sizə oxutmazdım və Allah da onu sizə bildirməzdi. Mən ondan (Quran nazil ediləndən) qabaq sizin aranızda (qırx il) ömür sürmüşəm. (Bu müddət ərzində məni doğru danışan bir adam kimi tanıyırsınız. Qırx yaşından sonra mən sizə necə yalan deyə bilərəm?) Məgər (bunu) dərk etmirsiniz?" (Yunis, 16).

Əgər o bu vaxtadək xalqına heç yalan danışmayıbsa, sizcə, bundan sonra belə bir ali işdə onları aldadardımı? Həzrəti Məhəmməd və ya başqa birisinin həyatı boyu susması, öz istəklərini, ehtiras və arzularını gizli tuta bilməsi mümkün idimi? O və ya başqası, əgər altdan-altdan iş görən birisi idisə, qırx yaşınadək özünü dürüst göstərməsi, yalan və fırıldaqlarını gizləməsi, başqalarını buna inandırması necə mümkün ola bilərdi?!

Hətta dürüst və etibarlı insanlar uğur, nailiyyət və güc əldə etdikləri illər ərzində əsl məqsəd və niyyətlərini gizlədə bilmirlər, o ki qala bu müddət qırx il olsun! Əgər Allah Həzrəti Məhəmmədi *(Ona Allahın xeyir-duası və salamı olsun!)* böyüdüb tərbiyə etməsəydi, əsl niyyət və istəyi kimsədən gizli qalmazdı. O bu illər ərzində heç bir niyyətə düşməmiş, istək nümayiş etdirməmiş, sonralar ona müdhiş uğurlar qazandıra biləcək güc və təcrübə toplamamışdı. Əgər o bütün bunlardan uzaq olmuşsa, onda təkcə etibarlılıq və dürüstlük hər bir peyğəmbər üçün tələb olunan başlıca məziyyətlərə çevrilir.

Bəli, Həzrəti Məhəmməddə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* belə bacarıq və iddialı davranışlar, üstün ali keyfiyyətlər qırx yaşından sonra özünü göstərmişdi. Bütün bunların sistemli şəkildə, özü də o cür ibtidai cəmiyyətdə, sadə bir insanda cəm olmağı bir möcüzədir. Ağılı lazımlı bilən, ona həqiqi status qazandıran möcüzə!

Bu mülayim, dürüst və etibarlı insan yaxşılaşdırma işinə – islaha çağıran sarsılmaz və möhkəm "ağac"a çevrilmişdi. Heç savad da almamışdı. Dünyanın ucqar guşəsində savadsız çöl xalqının arasından çıxmışdı. Burada fəlsəfi cərəyanlar, dərslərin deyildiyi portiklər, kitabxanalar yox idi. Əsasən gəncləri islama çağırırdı. Səhabələri ilə birlikdə əzab-əziyyətə tuş gəlməsi, işgəncələrə məruz qalması, Qüreyşin inad göstərib bütpərəstlikdən ikiəlli yapışması Həzrəti Məhəmməd və yoldaşlarının Allaha çağırış əzmini, çətinliklərə dözümünü artırırdı. Özü də elə bir vaxtda ki, ətrafdakı insanların onların çağırışına hay vermə ehtimalı yox

idi və məruz qaldıqları işgəncələrin sonu görünmürdü. Nəhayət, usanma nədir bilməyən, işgəncələrə səbrin göstərildiyi 13 illik çağırışdan sonra dönüş baş verdi: dəvət öz gücünü toplamış, Yəsribin[3] Övs və Xəzrəc qəbilələri gözlənilmədən islamı qəbul etmiş, Peyğəmbərə tabe olub islama kömək edəcəklərinə söz vermişdilər.

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* on il ərzində ədalətli, tolerant, qardaş, xeyirxah və etiqad azadlığına hörmət edən ümmət üçün dövlət qura bilməyi, özü də müvəffəqiyyətlə qura bilməyi son dərəcə heyrət doğurur. O bu dövləti ədalətlə idarə edir, müdrikliklə qərar verib hökm kəsir, sistem yaradır, səhra və dağlardakı ərəb qəbilələrini dizə gətirən, qalalarına güvənən yəhudilərin oyunlarını boşa çıxaran müzəffər ordulara rəhbərlik edirdi. Eyni vaxtda, kəlamları, tövsiyələri fəsahətli, yaxşı və faydalı olub, müdriklik, yolgöstərənlik, asanlıq və kamillik baxımından bir möcüzə idi.

Bir insanın belə bir mühitdə bu kimi ehtiras və istəklərə, güc və bacarığa sahib olmağı, uşaqlığı, cavanlığı və yeniyetməliyi boyu bütün bunları gizlətməyi, qırx yaşınadək həyatının heç bir anında büruzə verməməyi təəccüb doğurmurmu? Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* belə bir işi qırx il ərzində həm bu qədər dəqiqliklə planlaşdırması, həm də heç nə hiss etdirmədən gizli saxlaması, istək və arzularını dilinə gətirməməsi mümkündürmü? Həmçinin necə oldu ki, təcrübəsi az "yaşıl budaq" qocaman "ağaclar"a – liderlərə, ağalara, kahin və qəbilələrə qalib gəldi, özü də müdriklik və tədbirliliklə, siyasət və müharibələrlə

---

[3] Mədinənin – ***tərcüməçinin qeydi.***

qalib gəldi? Qurduğu dövlət o dövrün böyük zülm ocaqlarını – Sasani İranı və Bizansı tənəzzülə uğratmış, gətirdiyi din isə dünyanın, demək olar ki, hər yerinə, fərqli mədəniyyətlər və xalqlar arasında yayılmışdı. Bütün bunlar təəccüblü deyildirmi?

Altmış üç il ərzində Həzrəti Məhəmməd ağacını, keyfiyyət və bacarıqlarını həm tək-tək, həm də cəm halda "çiçəkləndirən" bu "nəfəs" onun peyğəmbərliyinin həqiqiliyini isbatlayan əsl möcüzədir. Xalqının böyük insanları bu peyğəmbərliyə iman gətirmişdilər. Cəmiyyətdə seçilən və nüfuz qazanan bu insanlar Həzrəti Məhəmmədi *(Ona Allahın xeyir-duası və salamı olsun!)* hələ balaca ikən tanımış, sınaqdan çıxarmışdılar. Onlar Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* heç bir ümidin olmadığı bir dövrdə – 13 illik məşəqqət və əziyyət illərində tabe olub iman gətirmişdilər. Yaxşı bilirdilər ki, Məhəmmədə tabe olmaq onlara fayda və qazanc gətirməyəcəkdir. Elə isə uzun əsrlər sonra kim meydana atılıb iddia edə bilər ki, səhabələrdən daha bəsirətli, daha gözüaçıq, daha ağıllıdır, onların bilmədiklərini bilir, Məhəmməddə onların görə bilmədiyi cəhətləri (yalan, fırıldaq və s.) görür?! Özü ağıllı(!), səhabələr isə qafildir(!)

Həzrəti Məhəmmədin həyatı, inkişaf mərhələləri, enerji və bacarıqlarının meydana çıxması – bütün bunlarda hər bir ağıllı və insaflı elm adamı möcüzəvilik

aşkar edə bilər. Bəlkə də, bizdən kimsə Həzrəti Məhəmmədin həyatının ayrı-ayrı səhnələrində qəribəlik görməyəcəkdir. Halbuki bu ayrı-ayrı səhnələr bir çox cəhətdən yeganə və möcüzəvidir. Amma inanılmaz əsl möcüzə budur ki, bütün bu ayrı-ayrı səhnələr, ayrı-ayrı üstün xüsusiyyətlər bir adamda 63 il ərzində bu qədər kamil və bitkin şəkildə toplanmışdır.

İnsan həyatının strukturu piramidanı xatırladır. Bu piramidanın enli aşağı hissəsi (insan həyatının əvvəli və əsas hissəsi) tərbiyə, təhsil, təlqin, məharət, təcrübə və praktikadan ibarətdir. Bu baza az sayda insanı həyatın bu və ya digər sahəsində güc və qabiliyyət zirvəsinə çatdırır. Yəni, insan oğlu həyatının sonrakı mərhələsində birinci mərhələdə qazandıqlarının nəticəsi olaraq azacıq zəhmət çəkməklə ya müzəffər komandirə, ya bacarıqlı siyasi xadimə, dövlət adamına, ya təsirli qələm sahibinə, böyük şairə, ədibə, ya da yaradıcı alimə, tədqiqatçıya çevrilir. Amma Həzrəti Məhəmmədin həyatı bunun əksinədir. Onun həyatı hər bir sahədə (liderlik, müdriklik, siyasət) başıaşağı piramidanı xatırladır. Bəlkə də, onun həyatını "başıaşağı piramida" kimi təsvir etmək məqsədəuyğun deyildir; bu həyat incə yaşıl zoğun çiçək və meyvə verən ağaca çevrilməsinə oxşayır.

Peyğəmbərlik – islam, düzgün başa düşüldüyü təqdirdə, könüllərə əmin-amanlıq bəxş edir, insanları qardaşlıq və rəhmdilliyə təşviq edir, ədalətə, haqqa, xeyrə, biliyə, sülhə çağırır. Bu elə dindir ki, möcüzəvidir, xeyir təbiətlidir, dini mətnləri mütəvatirliklə[4] bizə gəlib

[4] **Mütəvatirlik**: hər hansı bir informasiyanın mötəbər sayılan bir qrup şəxsdən eyni məziyyətli digər qrupa ötürülməsini ifadə edən termin. Məsələn, "mütəvatir" hədis dedikdə yalan və

çatmışdır, əxlaqlı, dürüst, etibarlı peyğəmbərdən meydana çıxmışdır; möcüzəvi kitabı vardır. Belə din həqiqi din olmalıdır və doğruluğuna heç bir ağıllı insan şübhə etməyəcəkdir. Belə dinin Allahdan gələn din olmağı şübhəsizdir. Yaradıcı, Tək, Hər Şeyə Surət Verən Allahdan! Belə bir dini insanlara dürüst, etibarlı bir peyğəmbər çatdırmalıdır. Hidayət və istiqamət missiyası olaraq! Bu missiya özündə qeyb aləmi ilə reallıq dünyasını birləşdirir, yer üzünün xəlifəsi sayılan insanın həyatına məna qazandırır. İnsan həyatı ali əxlaq üzərində bina edilməli, yer üzünün abadlaşdırılmasına həsr olunmalıdır. İnsanın sağlam fitrəti də bunu təsdiqləyir, buna çağırır.

## *Problemdir, şübhə deyil...*

İslam dininin – peyğəmbərliyin insan təbiəti və bəşəriliklə ilə üst-üstə düşən möcüzəviliyinin bu tərəfini dərk etmək İbn Həzm kimi mütəfəkkirin metodologiyasında məqsədəuyğun hesab olunmuşdur. Belə dərketmə xurafat və mövhumatdan, mif və uydurmalardan xilas olaraq elmi üsluba üz tutan müsəlman zəkası üçün çox mühümdür.

Uşaqlığımdan etibarən elmi-əməli düşüncələr bu dinə olan imanımı möhkəmlətmiş, məni etnik və ya genetik, həm də coğrafi deyil, seçim müsəlmanına çevirmişdir. Həmçinin bu düşüncələr məndə elmi metoda inam

---

saxtakarlıqda həmrəylikləri mümkün olmayan bir qrup ravinin eyni xarakterli digər ravilərdən nəql etdikləri hədis növü başa düşülür – ***tərcüməçinin qeydi.***

yaratmış, mənə ağıl və qanunauyğunluqlar metodikası bəxş etmiş, məni, Allahın lütfü ilə, xurafat və uydurmalardan qorumuşdur. Bu səbəbdən, Allaha şükür ki, islam haqqında içimdə heç bir şübhə yaranmamışdır. Mən islamla əlaqəli suallara şübhə olaraq deyil, elmi-metodoloji yanaşma tələb edən problem kimi baxmışam. Çünki islamın haqq olduğunu bilirdim; yaranan suallar məndə şübhə, inkarçı mövqe və ya tərəddüd meydana gətirmirdi.

Bu səbəbdən problem və ya şübhələrlə əlaqəli mühakimə metodum iki hissədən ibarətdir: əvvəlcə, hər hansı bir problemi elmi-metodoloji cəhətdən öyrənirəm. Daha sonra ayrı-ayrı dini mətnləri islamın universal əsasları və məqsədləri əsasında nəzərdən keçirirəm. Bundan qeyrisi isə xurafatları, uydurmaları, mövhumatları işə qatmaqdan ibarətdir. Fikri fəaliyyətimizdə bundan xilas olmalı, bilik, təhsil metodikamızı təsis edərkən, elmi və siyasi kadrlarımızı hazırlayarkən belə yanaşmalardan imtina etməliyik. Bununla da bilik və təhsil metodlarımız fiziki və humanitar elm sahələri ilə yanaşı, dinin mahiyyətinin, dünyagörüşü və məqsədlərinin, prinsip və dəyərlərinin, anlayışlarının öyrənilməsini ehtiva edəcəkdir. Nəticə etibarı ilə islam dünyagörüşü və məqsədlərini reallaşdıran, onun prinsip və anlayışlarını, dəyərlərini işlək vəziyyətə gətirən həqiqi bilik və praktika meydana çıxacaqdır.

Allah İbn Həzmə rəhmət etsin – metodologiyası ətrafında düşüncələr məni bu metodologiyanı inkişaf etdirməyə həvəsləndirdi. Buna baxmayaraq, İbn Həzm islam dünyasının elm dahisi, əzəmətli alimidir. Gəncliyimin təcrübə və dünyagörüşü məni bir çox məsələ ətrafında düşünməyə səsləyirdi. Qeyb aləminin real dünya ilə əlaqəsi, dünya həyatının mənbəyi, insan mövcudluğunun məqsədi, yarandığı torpağa gömüldükdən sonrakı taleyi belə məsələlərdən idi. Bu metod və dünyagörüşünün mənə köməyi dəymişdi. Çünki bu təcrübə və dünyagörüşü canlı və aktiv idi, passivlik və ənənəvilik ifadə etmirdi. Allahdan arzum budur ki, bunun həm mənə, həm də başqalarına faydası toxunsun. Nəticədə ümmətin və insanlığın əsas qüvvəsi sayılan gənclərin həyatı bəşəriyyəti haqq yoluna, ədalət, qardaşlıq, abadlaşdırma mədəniyyətinə, sağlam fəhmə yönəltmək üçün zənginləşəcək, bu da öz növbəsində həyata məna və məzmun qazandıracaqdır.

Arzu edirəm ki, gənclər və oxucular bu böyük insanın[5], eləcə də onun yolu ilə gedən məşhur şəxsiyyətlərin həyatını öyrənərkən fikirlərini elmi-rasional və iman metodologiyası ilə tənzimləyən qaydalar tapacaq, bununla da, varislik məqsədini[6] həyata keçirəcək, vəhyi fitrətlə bütövləşdirəcəklər. Bütün bunlar isə onlara yol göstərəcək, xeyir və fədakarlıq həyatlarının əsas cizgisini əmələ gətirəcəkdir.

[5] İbn Həzmin – ***tərcüməçinin qeydi.***

[6] Allahın insanı yaratma məqsədindən söhbət gedir. Quranda deyilir ki, Allah insanı yer üzündə onu təmsil edən varis – “xəlifə” olsun deyə yaratmışdır – ***tərcüməçinin qeydi.***

# Mündəricat

Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
Vəhyin həqiqiliyini isbatlamada rasional dəlillər daha məqsədəuyğundur . . . . . . . . . . . . . . . . . . . . . . 5
Təqlid və geriləmə əsrləri ümmətin dahilərini həyatın küncünə sıxışdırır . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6
Ağıl möcüzədən daha məqsədəuyğundur . . . . . . . . . . . 10
Həqiqi peyğəmbərliyin şərtləri . . . . . . . . . . . . . . . . . . 12
"Başıaşağı piramida" möcüzəsi – rasional möcüzə . . . . . . 15
Problemdir, şübhə deyil . . . . . . . . . . . . . . . . . . . . . . . 23



*Əbdülhəmid Əhməd əbu Süleyman*

- Əbdülhəmid Əhməd əbu Süleyman 1936-cı ildə Məkkə şəhərində anadan olmuşdur.
- Orta məktəbi bitirdikdən sonra, 1959-cu ildə Qahirə universitetinin İqtisadiyyat fakültəsinə qəbul olunmuşdur.
- 1973-cü ildə ABŞ-ın Pensilvaniya universitetində "Beynəlxalq münasibətlər" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.
- Bir müddət Səudiyyə Ərəbistanında, Kral Məhəmməd ibn Səud adına Mədinə İslam Universitetində fakültə dekanı vəzifəsində işləmişdir.
- 1988-1999-cu illərdə Malayziya Beynəlxalq İslam Universitetinin rektoru olmuşdur.
- 1999-cu ildən ABŞ-dakı Beynəlxalq İslam Fikri İnstitutunun direktorudur.
- ABŞ və Kanada Müsəlman Tələbələri İttifaqının yaradıcılarından biridir.
- Professor Əbdülhəmid Əhməd əbu Süleyman sosiologiya, hüquq və islam düşüncəsində novatorluq üzrə çoxsaylı kitabların, monoqrafiya və məqalələrin müəllifidir.

Əsərləri:
- İslam iqtisadiyyatı nəzəriyyəsi: fəlsəfi və müasir metodlar
- Müsəlmanın düşüncə böhranı
- İslam maarifçiliyi: layihələr və nailiyyətlər
- İslam düşüncəsində metod problemi
- Müsəlman ailənin biblioqrafik məlumat kitabı
- Müsəlmanın iradə və mənəviyyat böhranı
- Müsəlman dünyasında ali təhsil sisteminin canlandırılması
- İki şəriət prizmasından insana baxış və s.

İDRAK